AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazması hüququnda*

**MƏHƏMMƏDƏLİ HÜSEYN OĞLU CƏHDİ**

# QURANDA VƏ HƏDİSLƏRDƏ ƏFV MƏSƏLƏLƏRİ

**7213.01 – "Dinşünaslıq"**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Şərifov Kamandar Kazım oğlu
filologiya üzrə elmlər doktoru

Rəsmi opponentlər: Hüseynov Sakit Yəhya oğlu
professor, fəlsəfə üzrə elmlər doktoru

Mürsəlov Ramiz Əlibala oğlu
fəlsəfə üzrə fəlsəfə doktoru

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universiteti
Fəlsəfə kafedrası

Müdafiə 25 oktyabr 2013-cü ildə saat "____"-də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı, İstiqlaliyyət küçəsi, 8.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" 2013-cü ildə göndərilmişdir.

**İxtisaslaşdırılmış Şuranın**
**elmi katibi, ilah.üzrə fəl.d.** **Z.A.Əbilova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Uzun əsrlərdən bəri həmişə dünyanın gündəmində olan islam bütün əzəməti ilə insan zəkasına güclü təsir göstərərək, onu doğru yola istiqamətləndirdiyindən yüksələn xəttilə inkişaf etməkdə və dünya miqyasında genişlənməkdədir. Bu da bütün bəşəriyyətə göndərilmiş islam dininin müqəddəs kitabı Qurani-Kərimdə deyilən həqiqətlər və bəşəriyyətə qarşı humanist münasibət sayəsində mümkün olmuşdur. Quranda və sünnədə əfv ilə bağlı verilmiş ayələr və hədislər də insanlığa qarşı humanist münasibətin tərkib hissəsini təşkil edir. Quran möminlərin xüsusiyyətlərini göstərərkən, onların əfvedici və qəzəbləndikləri zaman da bağışlayan olduqlarını vurğulayır.

Quran müsəmanlara hidayət yolunu göstərən bir Kitab olaraq məqsədi insana öz borclarını yerinə yetirmək məsuliyyətlərini dərk etdirmək, ruhunu möhkəmləndirmək və onu kamilləşdirməkdir.[1] Bununla yanaşı, Quran bir çox elmləri, qanun və nəzəriyyələri işıqlandıran, həmin elm sahələri haqqında çox dəyərli məlumatlar verən bir kitabdır. İslam dini ilə bağlı olan bütün elmlər Qurani-Kərimdən, bütün davranışları ilahi vəhyə əsaslanan Məhəmməd Peyğəmbərin (s) hədislərindən və məsum imamların ictihadlarından qaynaqlanır. Qurani-Kərimi, hədisləri, peyğəmbərimizin həyat və fəaliyyətini öyrənmək vətən sevgisi, millət sevgisi, din və məslək uğrunda mübarizə aparmaq və bu mübarizədə zəfər çalmaq üçün müstəsna əhəmiyyətə malikdir.[2]

Günümüzdə çox aktual olan “səbr etmək”, “dayanmaq” və

[1] Саййид Муджтава Мусави Лари. Основные положения ислама (Лекции по мсульманской догматике). Баку, 1999, 326ст.

[2] İbayev V.Ə. Qafqaz müsəlmanları idarəsi və ermənistan-azərbaycan münaqişəsi. Bakı, 1995, 244s.

"qatlanmaq" mənalarına gəlib çıxan tolerantlıq məfhumuna tez-tez rast gəlirik. İnsanlar arasındakı əlaqələrdəki tolerantlıq həyatı yaxşılaşdırır və yaşadır. Çünki insan hər an səhv etməyə meylli olan varlıqdır. İnsanların xəta və qüsurlarına tolerant münasibət göstərən şəxs həyatın işgəncəyə dönməsini qabaqlayır.

1998-ci ildə Bakıda keçirilmiş "Qafqazda islam mədəniyyəti" adlı simpoziumda H.Əliyev cənabları öz çıxışında buyurmuşdur: "Biz bir dövlət kimi islam dininin son dövrdə geniş və çox sürətlə inkişaf etməsini bəyənirik və bundan sonra da Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə hər cür imkan yaradacağıq. Biz islam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik. Çünki, biz yaxşı bilirik ki, İslam Azərbaycan xalqının, bütün islam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir".[3]

İslamın başlıca üstünlüklərindən biri də budur ki, o dünyanın böyük dinlərinin Allah tərəfindən göndərildiyini, onların sülh və dostluq dinləri olduğunu qəbul edir. İslam həm əvvəl, həm də axırıncı dindir ki, onun müqəddiməsi dünyanın başlanğıcından nəzərdə tutulmuş və sonuncu peyğəmbəri Məhəmmədin (s) bəsətiylə kamillik zirvəsinə çatmışdır. Quran və Rəsulullah Əfəndimiz (s) əfvedici olmağın fəzilətinin üstündə xüsusilə durmuş, bunun möminlər arasında qardaşlıq duyğularının inkişafına vasitə olduğunu bildirmişdir. Onun örnək olacaq davranışlarından biri də şəxsi səbəblərə görə heç kimə kin bəsləməməyi və düşməni belə olsa, əfv etməsi idi.

Peyğəmbər Əfəndimiz (s.) belə buyurmuşdur ki, təvazökarlıq insana yüksəklikdən başqa bir şey gətirmir. Təvazökar

---

[3] Şeyhülislam Hacı Allahşükür Paşazadə. Kafkasya`da İslam Medeniyeti. Milletlerarası Sempozyumu Tebliğleri. Bakü – Azerbaycan, 9-11 Aralık 1998. İstanbul, 2000, 257s.

olun ki, Allah sizi yüksəltsin. Əfv və bağışlanma insanın ancaq şərəfini yüksəldir. Bağışlayın ki, Allah sizi izzətləndirsin.[4]

Kin bəsləmək və intiqam almaq kimi düşüncələrin möminlərin arasında yeri yoxdur. Əfvedici olmaq axirətdə möminin dərəcəsini artırır və dünya həyatında insani duyğuların inkişafına yardımçı olur. Allahın Rəsulu belə buyurur: "Allah-Təala qiyamət günü məxluqatı məhşər yerinə topladığı zaman ərşın altından üç dəfə "Ey iman edənlər, Allah sizi əfv etdi, siz də biri-birinizə olan haqqınızı bağışlayın" deyə bir səs gələr".[5]

Unutmaq olmaz ki, əfv və güzəşt dedikdə, insan yalnız bəzi hallarda deyil, bütün şəraitlərdə bu xüsusiyyətə sahib olmalı və bu, bir növ onun üçün vərdiş və adət halına çevrilməlidir. Əgər insanlar bir-birlərinə güzəşt etməsə, biri digərinin səhvinə dözümlə yanaşmasa cəmiyyətdə özbaşınalıq baş alıb gedər və hər cür hərc-mərclik böyük bir problemə çevrilər. Belə bir şəraitdə müqəddəs İslam dininin öz davamçılarına tövsiyyə etdiyi şey də səbrli və təmkinli olmaq, hər işdə mümkün qədər güzəştə getməkdir.

İnsanların fərqli ümid və qorxulara sahib olması fərqli məqsədlər uğrunda çalışmalarına gətirib çıxarır. Buna görə də onlar bir-birlərinə qarşı dözümlülük göstərməlidirlər. İslam cəmiyyətində tolerantlığın bir əxlaq norması olduğu Quranda və hədislərdə öz əksini tapmışdır. Tolerant olmaq böyük ürəklərin işidir. Peyğəmbər (s) özünə qarşı olan kobudluqları təbəssümlə qarşılamış, yaradılanı Yaradana görə bağışlamışdır. İslamın heç bir dinə bənzəməyən, sürətlə yayılmasına rəvac verən amillərdən biri də bu dinin digər dinlərdən tolerant və dözümlü olmasıdır.

İnsanları bağışlamaq gözəl əxlaq sahibi möminlərə yaraşan bir xüsusiyyətdir. Qurani-Kərim xəbər verir ki, əfv edənləri Allah sevir. İslama görə bir pisliyin cəzası – qarşılığı yenə

---

[4] www.islamevi.az
[5] Yenə orada.

onun qədəridir. Ancaq haqq sahibi haqqını bağışlarsa, bu bir fəzilətdir. Quran bağışlamağı tövsiyyə edir.

Hər bir insanın zəif nöqtəsi vardır və insan səhvi o zəif nöqtələrində edir. Odur ki, insan bir səhv etdikdə özünü bağışlamağa çalışır. Özümüzə göstərdiyimiz bu münasibəti digərlərinə qarşı da tətbiq etməliyik. İnsan özü üçün istədiyini digərləri üçün də istəməlidir. Özümüz də bağışlamağa, əfv etməyə çalışmalıyıq. Dinimizin müqəddəs kitabı Qurani-Kərim və ilahi vəhyə söykənən peyğəmbər hədisləri də bunu təbliğ edir. Bu gün əsəbləri tarıma çəkilmiş dünyamızı, qorumaq üçün əfv və bağışlamağa böyük ehtiyac vardır.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, Quran və Peyğəmbər hədisləri əsasında əfv məsələlərinin araşdırılmasını qarşıya məqsəd qoymuş bu tədqiqat işi olduqca aktual bir mövzuya həsr edilmişdir.

İndiyədək əfv məsələlərinə ayrı-ayrı müəlliflərin tədqiqatlarında toxunulsa da, Azərbaycanda bu problem Quran və hədislər əsasında kompleks şəkildə ilk dəfə araşdırılır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Quran ayələri və Peyğəmbər (s) hədisləri əsasında əfv məsələlərinin öyrənilməsini həyata keçirmək idi. Bütün bunlar aşağıdakı məsələlərin əsas vəzifə kimi qarşıya qoyulmasını və həllini tələb edirdi:

- Əfv və onun İslam əxlaqında təzahürü
- Qurani-Kərim islam əxlaqının başlıca mənbəyi kimi.
- Hz.Məhəmməd Peyğəmbərin (s) hədisləri islam əxlaqının meyarı kimi.
- Qurani-Kərimdə əfv ayələri və onların təhlili.
- Ayələrdə əfv edilməyəcək günahlar haqqında.
- Həzrət Məhəmmədin (s) hədislərində əfv məsələləri.
- Əfv haqqında hədislər və onların təhlili.
- Hədislərdə əfv edilməyəcək günahlar haqqında.

**Tədqiqatın elmi yeniliyi.** Son və gerçək din olaraq İs-

lamın həyat həqiqətlərini insanlığa çatdıran Qurani-Kərim hər bir yöndən araşdırmağa layiq olan ilahi bir kitabdır. İnsanların hidayət rəhbəri olan bu müqəddəs kitabın öyrənməsi yaxşı müsəlman olmaq üçün zəruridir. İslamın, inancın, ibadət və əxlaqın əsaslarını mühüm prinsiplər halında özündə ehtiva edən Qurani-Kərim və bu prinsiplərə söykənən Peyğəmbər (s) hədisləri dini həyatın mühüm və əsas mənbəyidir.

Bu müqəddəs kitab Hz.Peyğəmbərin zamanından günümüzə qədər keçən dövr ərzində müsəlmanlar tərəfindən anlaşılmağa çalışılmış və nəticədə saysız-hesabsız tədqiqat işləri meydana çıxmışdır.[6] Həmin tədqiqatlar sayəsində indiyədək görülmüş işlərin əhəmiyyətini zərrə qədər azaltmadan qeyd etmək lazımdır ki, bu dissertasiya işi ilə Azərbaycanda ilk dəfə olaraq əfv problemi Quran ayələri və Peyğəmbər hədisləri əsasında ətraflı şəkildə araşdırılaraq, əfvin çağdaş dünyamız üçün əhəmiyyəti müəyyənləşdirilmiş və onun cəmiyyətdə əmin-amanlıq və sülhün bərqərar olması üçün nə qədər zəruri olduğu aydınlaşdırılmışdır. Bu baxımdan da "Quranda və hədislərdə əfv məsələləri" adlı tədqiqat işi Azərbaycan islamşünaslığında hələ işlənməmiş, yeni bir mövzudur. Odur ki, tədqiat işində aparılan araşdırmaların nəticələri də yenidir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın yazılmasında sosial-funksional və tarixi-müqayisəli metoddan istifadə olunmuş, kompleks tədqiqat üsulu tətbiq edilmişdir. Dissertasiyada azərbaycan, ərəb, türk, rus və qərb ədəbiyyatı kontekstində tədqiqatın predmeti ilə əlaqədar görkəmli alimlərin elmi müddəalarına, fikirlərinə əsaslanmış, tədqiqat prosesində mövcud olan nəticələrdən söz açılmışdır.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Dissertasiya Azərbaycan ilahiyyatçılarının Quranşünaslıq elmi sahəsində gələ-

---

6 Ali Turqut. Tefsir usulu ve kaynakları. Marmara Universitesi İlahiyyat Fakültesi Vakfı Yayınları Nu 44. İstanbul, 1991, 360s.

cək tədqiqatlara elmi və metodoloji zəmin yarada bilər. Onun kompozisiyasından oxşar problemlərə dair tədqiqatların aparılmasında, nəticələrindən isə milli dinşünaslıqla bağlı dərs vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsində hazırlanmışdır.

Dissertasiyanın əsas mahiyyəti müəllif tərəfindən Azərbaycan Respublikasında, İran İslam Respublikasında və Türkiyədə nəşr edilən müxtəlif elmi jurnallarda, eləcə də elmi konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilir, elmi yeniliklər, nəzəri və təcrübi əhəmiyyəti, dissertasiyanın aprobasiyası və quruluşu müəyyənləşdirilir.

Birinci fəsil "Əfv və onun islam əxlaqında təzahürü" adlanır. Fəsil iki yarımfəsildən ibarətdir. "Qurani-Kərim islam əxlaqının başlıca meyarı kimi" adlanan birinci yarımfəsildə daha çox sosial problemlərin, cəmiyyətdəki bir çox siyasi və milli-hüquqi münasibətlərin nizama salınmasına diqqət yetirən islamın əxlaq kodeksində əfvin mühüm yer tutduğundan bəhs olunur.

İnsanın malik olduğu yaxşı və pis xüsusiyyətləri dini kitablarda "xülq" adlandırılıb. Bu sözün cəm forması "əxlaq"dır. Əxlaq elmi insan xasiyyətlərindən, onları idarə etməkdən, müəyyən xasiyyətlərin inkişaf və tənəzzül səbəblərindən və metodlarından bəhs etdiyi üçün ona bu adı vermişlər.[7]

---

[7] Əsgərov E.M., Rəhimov N.Ə. İslamın əsasları. Fəlsəfə, tarix və əxlaq ba-

İslam əxlaq dinidir. Əxlaq Allah-Təalanın bizə ən böyük lütfüdür. Əfv etmək Allah-Təalanın sifətlərindən biridir. Allah ən bağışlayıcı insanla müqayisə edilməyəcək qədər çox bağışlayan və mərhəmət edəndir. İmansızlıqdan üz döndərib və əfv diləmək məqsədi ilə Allaha yönəldikdə, insan Onun rəhmətindən hər şeyə ümid edə bilər.[8]

İslamın müqəddəs kitabı olan Quran insanların həyatı, əxlaqı, yaşayış tərzi, ədəbi, mərifəti, bir-birinə münasibəti və cəmiyyətdəki mövqeyi, həmçinin bu cəmiyyətdə hər fərdin vəzifəsini göstərən bir təlimat kitabıdır. Bəşər övladına sağlam ağıl və düşüncə verən Qurani-Kərim insanlara ədalət, azadlıq, bərabərlik, barışıq və qardaşlıq tövsiyyə edir. Quranda tövsiyyə edilən üstün əxlaq xüsusiyyətlərindən biri bağışlaya bilməkdir. Quran əxlaqından uzaq olan insanlar üçün əfv etmək son dərəcə çətindir. Ancaq Allah möminlərə əfv etmənin daha gözəl bir davranış olduğunu bildirmişdir.

Yarımfəsildə bağışlama və əfvin insana psixoloji və fiziki baxımdan göstərdiyi müsbət təsir də açıqlanır. İnsanlar yüzillər boyu uzun və sağlam yaşamağın sirrini araşdırmışlar. Mütəxəssislər isə bunun üçün bəzən pəhriz, bəzən də idmanı tövsiyə edirlər. Son dövrdə həkimlər bu məsələ ilə bağlı yeni bir fikirlə çıxış ediblər. Uzunömürlü olmanın və sağlam həyat tərzinin sirrini araşdıran Amerikanın nüfuzlu Nyusvik jurnalında dərc olunan məqaləyə görə, uzun ömür sürmənin yolu bağışlaya bilməkdən keçir.[9]

Nümunə olaraq qeyd edilir ki, Frederik Luskin və həmkarları San-Fransisko şəhərində yaşayan 259 nəfər üzərində təcrübə aparıblar. Təcrübədə iştirak edən şəxslərlə 6 dəfə 90 dəqiqəlik görüş təşkil edən alimlər apardıqları söhbətlərdə onlara bağışlanmağı öyrətməyi səy göstəriblər. Təcrübədə iştirak

---

xımından. "Avropa" nəşriyyatı. Bakı, 2007, 328s.

8 Həmidullah M. İslama giriş. "Qismət". Bakı, 2006, 338s.

9 www.legend.az/7319

edən alimlər apardıqları söhbətlərdə onlara bağışlamağı öyrətməyə səy göstəriblər. Belə ki, təcrübədə iştirak edən şəxslər onlara pislik edən şəxsləri bağışladıqdan sonra daha az əzab çəkdiklərini bildiriblər. Təcrübə nəticəsində stressdən qaynaqlanan bel ağrısı, yuxusuzluq və mədə ağrısı kimi psixoloji və fiziki əlamətlərin insanlarda azadlığı müşahidə edilib. Dr.Luskinin gəldiyi nəticəyə görə, uzun müddət davam edən qəzəb bədəndəki termostatı sıfıra endirir. Əgər müntəzəm şəkildə yavaş-yavaş qəzəblənməyə vərdiş etsəniz, bir müddət sonra nəyin normal olduğunu ayıra bilməyəcəksiniz. İnsanların vərdişə çevirə biləcəyi bu tip xüsusiyyətlər sağlam düşüncəni çətinləşdirə bilər. Bu da vəziyyətin daha da pisləşməsinə gətirib çıxarır".[10]

Fəslin ikinci yarımfəsli "Peyğəmbərin (s) hədisləri islam əxlaqının əsas mənbəyi kimi" adlanır. Bu yarımfəsildə əfvin dünyada ən gözəl əxlaq olduğu qeyd edilir və bu fikrin Peyğəmbərin (s) hədislərindən gətirilən nümunələrlə təsdiqlənməsinə səy göstərilir. Hz.Peyğəmbəri (s) nümunə götürərək, müsəlmanların bir-birlərinin səhvlərinə, xüsusilə, qadınlara, uşaqlara, yetimlərə qarşı əfvedici və bağışlayan olmaları, dövlət adamlarının əfvə üstünlük verməıləri, müşriklərin, müsəlmanlara pislik edənlərin və zimmilərin əfv edilib-edlməyəcəkləri kimi mövzulara dair bir çox hədislər zikr edilmişdir.

Peyğəmbər (s) buyurub: "Xalqla xoş rəftar etmək imanın yarısıdır. Onlarla yoldaşlıq edib məhəbbət göstərmək isə həyatın yarısıdır".[11] Üç şey vardır ki, onlarsız kimsənin əməli kamil olmaz: günahdan qorunmaq, xalqla yumşaq rəftar etmək üçün əxlaq cahillə qarşılaşmaq üçün səbr, cəhalətə dözüb səbr edənlər, pislikləri əfv edənlər qiyamət günü sorğu-sualsız cənnətə

---

[10] htpp://legend.az

[11] علي صحت، ترجمه وسايل الشيعه مبحث جهاد النفس، تهران، انتشارات ناس، 1364 شمسي، ص٦٣٠.

daxil olarlar.[12]

Peyğəmbər (s) buyurmuşdur: "Əfvin yolunu tutub ona öyrənin. Çünki əfv insana izzətdən başqa bir şey verməz. Əfv edin ki, Allah sizə izzət versin.[13] Tədqiqat işində bir çox hədislərə müraciət edilir və belə bir qənaətə gəlinir ki, əfv böyük sifətdir. Əgər Allah bəndəsi bunlara əməl etsə, yəqin ki, xeyirli və yaxşı nəticələrindən də faydalanar. Əfv bəzilərinin sandığı kimi zillət və alçaqlıq deyil, əzizlik və izzətdir.

İkinci fəsil "Qurani-Kərimdə əfv məsələləri" adlanır. Fəsil iki yarımfəsil və üç hissədən ibarətdir. Birinci yarımfəsil "Qurani-Kərimdə əfv ayələri" adlanır. Qurani-Kərimdə "əfv" kəlməsi otuz beş şəkildə yer almaqdadır. Əfv kəlməsi həm Allah-Təalanın xüsusiyyəti, sifəti olaraq yer alır, həm də insanlara tövsiyyə və əmr edilir. Allahın buyurduğu bütün sifətlərin özünəməxsus hikməti vardır. Bunların hamısı bəşər övladının xeyrini nəzərdə tutmuş, yaxşılıqlara, onun dünya və axirət səadətinə aparıb çıxaran yoldur. Burada əfv də həmin yüksək və əxlaqi sifətlərdən biri olaraq, özünəməxsus üstünlüyə, habelə fəzilətə sahibdir. Quranda bir çox ayələr vardır ki, Allahın əfv edən və bağışlayan olduğunu göstərir. Quran ayələrindən istifadə edilərək göstərilir ki, Allah xeyirli işlər görənləri, məqsədi ilahi bağışlanmaqdan ibarət olanları mənəvi yarışa dəvət edir. Həmin yarışın əsas məqsədi bağışlayaraq, mənəvi məqama çatmaq və günahlardan təmizlənməkdən ibarətdir. Allah-Təala günahkarları cəzalandırmaqda tələsməyir. Çünki, Onun mərhəməti çoxdur və həmin mərhəmət və rəhmət hər şey üçündür. Qurani-Kərim buyurur: "(Ya Peyğəmbər! Mənim adımdan qullarına) de ki: "Ey mənim günah törətməklə özlərinə zülm etməkdə həddi

---

12 جمال الدين ابومنصور الحسن بن يوسفي بن علي بن المطهر الحلي المشتهر بالعلامه، كشف المراد في شرح تجريد الاعتقاد، اصفهان، گلبهار،1352 شمسي، ٥٧٢ص.

13 علي صحت، ترجمه وسايل الشيعه مبحث جهاد النفس، تهران، انتشارات ناس، 1364 شمسي، ٦٣٠ص.

aşmış bəndələrim!" Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, o bağışlayan və rəhm edəndir!".[14] Tədqiqat işinin əsas məqsədi əfv və barışığın cəmiyyətdəki müsbət keyfiyyətlərini təzahür etdirmək olsa da, həmçinin qeyd edilir ki, əfv və bağışlamaq layiqli şəxslər üçündür. Bunu qaniçən düşmənlərə aid etmək olmaz. Çünki, elə adamların bağışlanması onların daha da yırtıcı olmasına səbəb olar.[15]

Birinci yarımfəsil üç hissədən ibarətdir. Birinci hissə "Quran ayələrində əfv gözəl əxlaqi davranış kimi" adlanır. Qurani-Kərimin bir çox ayələrində məhz əfv etməklə cəmiyyətdə yaranan yaxşı münasibətlərdən, gözəl əxlaqi keyfiyyətlərdən bəhs edilir. Bu paraqrafda bir neçə ayəyə müraciət edilərək gözəl əxlaqi davranışlara gətirib çıxaran əfv mövzusu araşdırılmışdır.

Qurani-Kərim buyurur: "Aranızda olan fəzilət və sərvət sahibləri qohum-əqrəbaya miskinlərə və Allah yolunda hicrət edənlərə (heç bir şey verməyəcəkləri barədə) and içməsinlər. (Onları) əfv edib, (cəzalandırmaqdan vaz keçsinlər! Məgər siz bu yaxşılıq müqabilində) Allahın sizin (günahlarınızı) bağışlamağını istəməzmisiniz? Allah (bəndələrini) bağışlayan və rəhm edəndir!".[16] Ayədən məqsəd budur ki, imkan sahibləri Allah yolunda yaxınlar, yazıqlar və köçərilər üçün öz mallarından bəxşişlər versinlər və çəkinməsinlər. Kiçik ixtilaflara görə onlara bəxşiş etməmək üçün and içməsinlər. Yaxşı olar ki, onların günahlarını bağışlasınlar və onlara yaxşı münasibət bəsləsinlər.

Digər bir ayədə qisasın təyin edilərək, qəbilələrarası davam edən böyük bir qırğına əfv yolu ilə son qoyulmasına işarə edilir: "Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən ötrü

---

[14] Qurani-Kərim, 39.53.
[15] ناصر مکارم شیرازي، تفسیر نمونه، تهران دارالکتب اسلامیه، ۲۰٦ص.
[16] Qurani-Kərim, 24.22.

sizin üçün qisas almaq hökm qərara alındı (vacib oldu). Bağışlanmış qatil də yaxşılıqla qan sahiblərinə diyət (qanbahası) verməlidir. Bu (qisası qanbahası ilə əvəz etmək hökmü) Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük, mərhəmətdir”.[17] Bu ayə qisas və əfvin təmamilə insanı və məntiqi bir məcmuəsi olan ədalətli əmrindən əlavə, cahiliyyə dövrünün amansiz hökmünü də aradan götürür.

Birinci yarımfəslin ikinci hissəsi “Əfv diləməyi əmr edən Quran ayələri (tövbə)” adlanır. Tövbə “günahı tərk etmək” mənasını daşıyır. Qurani-Kərimdə tövbə və ona yaxınmənalar bildirən sözlər 87 dəfə təkrar olunmuşdur.[18] Tövbənin qəbul olması günahın aradan qaldırılması deməkdir. Tövbə etmək isə tövbə edənin peşman olduğuna dəlalət edir. Quran insanın hal və şəraitini təhlil edir və ona axirətdə lazım olacaq kamal və səadətə qovuşmaq yollarını göstərir.

Allah-Təala tövbə edənlər üçün üç nemət hədiyyə etmişdir:

1) Allah onları sevər
2) Ərşi çiyinlərində daşıyanlar və düz yolla gedənlər tövbə edənlər üçün əfv və bağışlamaq tələb edər
3) Tövbə edənlərin günahları xeyir və hədiyyəyə çevrilər.

Bəzən cahil insan bütün pis əməllərinə baxmayaraq, tövbəsinin qəbul olduğunu gördükdə, günah etməyə, marağı artar.

Qurani-Kərimdə münafiqlərin tövbələrinin qəbul olunması ilə bağlı ayələr vardır. Münafiq əməlinin pisliyi və qəbihliyi üzündən cəhənnəmin ən alt qatına yerləşəcək. Hər kəs tövbə edib yaxşı əməl edən olarsa, əlbəttə ki, Allah yanında tövbəsi qəbul olacaqdır. Allah ona şərik qərar verən şəxs üçün cənnəti haram etmiş və onun yeri cəhənnəmdir.

Qurani-Kərim yol göstərən və tərbiyə kitabıdır. Onun maraqlı tərbiyə yollarından biri budur ki, hər bir hədə-qorxunun

---

[17] Qurani-Kərim, 2.178.
[18] الامام محمد الشافعي، فقه منهجي، سنندج، 1383 شمسى، ٦١٠ص

ardınca insana bir ümid qapısı və nicat göstərir. Bu da ona görədir ki, insan nə qədər günahkar olsa da, Allahın rəhmətindən ümidsiz olmasın.

İkinci fəslin birinci yarımfəslinin üçüncü hissəsi "Qurani-Kərim əfv edilməyəcək günahlar haqqında" adlanır. Bu paraqrafda insanın öz nöqsanını başa düşüb, əməlindən dönüb Allaha üz çevirərək bağışlanmasını diləmək şansı olduğundan bəhs edilir. Həmçinin qeyd edilir ki, bu zaman insanın tövbəsi qəbul edilməyə də bilər. Bu aşağıdakı hallarda baş verər:

1. Ölüm ayağında olarkən.
2. Tövbə edən ixtiyar sahibi olmazsa.
3. Tövbə zahiri (qeyri-həqiqi) olarsa.
4. Haqq danılarsa.
5. Xalqın haqqına onların izni olmadan təcavüz edilərsə.
6. Kafir ölənlərin.
7. İnad edənin.

Qurani-Məcidin müxtəlif ayələrində əksini tapmış günahın əfv edilib bağışlanması vasitələrini beş mövzu çərçivəsində vermək olar:

1. Tövbə edib Allaha doğru qayıtmaq günahdan uzaq durub pis əməlləri yaxşı əməllərlə əvəz etməklə yanaşı olsun.
2. Pis əməllərin bağışlanmasına səbəb olacaq yaxşı və fövqəladə əməllər.
3. Şəfaət (araçılıq).
4. Böyük günahlardan çəkinmək kiçik günahların bağışlanmasına səbəb olar.
5. İlahi əfv o adamlara qismət olar ki, həmin əfv və bağışlamaya layiq görünsünlər.

Hər bir möminin tövbəsinin həqiqi olması üçün dörd şərt vacibdir:

1. Ürəkdən peşmançılıq hissi keçirtməli.
2. Günahdan uzaq olmalı.
3. Bənzər günahları işlətməmək üçün qərar verməli.

4. Allahdan qorxmalı.

Bütün bunlarla yanaşı paraqrafın sonunda qeyd edilir ki, kimsənin əfv edilib-edilməyəcəyini Allah-Təaladan başqa heç kəs bilməyir. İmam Sadiq (ə) buyurmuşdur: “Böyük və digər günahlar dedikdə şirkdən başqa günahlar nəzərdə tutulur ki, Allah istəsə onları tövbəsiz də əfv edib bağışlaya bilər.[19]

İkinci fəslin ikinci yarımfəsli “İslam hüququna görə ayələrdə əfv məsələləri” adlanır. Bu yarımfəsildə göstərilir ki, insanı yaradan Allah-Təala yer üzündə nə vardırsa, onun ixtiyarına vermişdir. Bunlardan faydalanarkən insan qüvvəsindən kənarda qala biləcək heç nə yoxdur. Çox şey insanın iradəsindən, ağlından, bacarığından, səyindən və s. özünəməxsus xüsusiyyətlərindən asılıdır. Bu yolda səhvlər, yanlışlıqlar, məsuliyyətsizliklər də ola bilər. Yarımparaqrafda açıqlandığı kimi yanlışlıq baş verərsə, tövbə edildikdə, həmin şəxs əfv oluna bilər. Qurani-Kərimdən və Peyğəmbərin (s) hədisindən çıxış edərək doqquz belə vəziyyət nəzərdən keçirilmişdir.

1) Teyrət (kiminsə taleyini fala baxarkən qaranlıq görmək) 2) Fikir vəsvəsəsi 3) Haqlı şəxsə qarşı paxıllıq 4) Yetkinlik 5) Ağıl 6) Elm, ya da onu təhsil etmə imkanı 7) Qüdrət 8) Çarəsiz qalmamaq 9) Çəkinmə (ikrah).

Dissertasiyada bunların hər birinin açıqlanması verilir. “Çəkinmə” haqqında yazılır: “Çəkinmə (ikrah) o zaman baş verir ki, fərd zalim bir şəxs, ya qrup tərəfindən qorxudular və ya öz daxili razılığı olmadan hər hansı bir qeyri-əxlaqi əməli yerinə yetirməkdən çəkinər. Məsələn, kimsə birinin barəsində deyər ki, əgər filankəs orucunu yeməzsə, ölə bilər. Yaxud, filan mövzu barədə düzünü desə, işdən qovulacaqdır və s. bu zaman kimsə oruc tutmaqdan və yaxud, sözün düzünü deməkdən çəkindirilir. Belə baxanda günaha batmış olur. Lakin bu

---

[19] محمد باقر ساعدي، ترجمه سفينه البحار (شيخ عباس قمي)، مشهد، آستان قدس رضوي، 1375 شمسي، ٥٦٠ص.

işdə təsir olunduğundan Allah-Təalanın onu bağışlamasına ehtimal vardır.

Əgər tövbə edib, tövbəsinə əməl edərsə, Allah-Təala onu əfv edər.

Tədqiqat işinin III fəsli “Həzrət Məhəmmədin (s) hədislərində əfv məsələləri” adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil “Əfv haqqında hədislər” adlanır. İslam gözəl əxlaq deməkdir. Müsəlmanın dəyəri onun əxlaqı ilə ölçülür. İbadətləri əmr etdiyi kimi, əxlaqi vəzifələrin yerinə yetirilməsi də dinimizin əmridir. İslam əxlaqının, islam hüquq sisteminin ikinci qaynağı Peyğəmbərin (s) hədisləridir (sünnə). Sünnə Peyğəmbərdən (s) nəql olunan deyim, davranış və hərəkətlərdir. Bunlar Qurani-Kərimin buyurduqları ilə üst-üstə düşür. Böyük Allahın Adəm övladını dəvət etdiyi bütün əxlaqi sifətlərin hər birisi bir hikmət və məsləhət üzündəndir. Həmin əxlaq bir çox yaxşılıq, habelə mənafeyə səbəb olur və hər iki dünyada səadət və xoşbəxtlik gətirir. Əfv də onlardan biri olaraq, dəyərli xüsusiyyət, üstün fəzilət və böyük ürəklilik hesab olunur. Bu sifət alicənablıq və fəzilət məcmuəsi, ehsan və özəl əxlaq, nəfs böyüklüyü və dözümün ən ali dərəcəsinə mənsub Peyğəmbərimizdə (s) daha yüksək dərəcə özünü büruzə vermişdir. O Həzrət xalqın Ona qarşı olan əziyyət və əzabına qarşı sakit qalmış və onları əfv etmişdir. Bundan əlavə, onlara qarşı mehribanlıq və mərhəmət göstərmiş, onlar üçün dua etmiş və onları şəfaət edib demişdir: “Allahım, onları bağışla, doğru yola yönəlt! Daha sonra şəfaətinin səbəbini bildirmək üçün xalqı özündən hesab edib, qövmüm” adlandırmışdır. Onların cəhalət və bilməməzlikləri üzündən Allahdan üzr istəmişdir.

Bu yarımfəsil iki hissədən ibarətdir. Birinci hissə “Əfv hədislərdə gözəl əxlaqi davranış kimi” adlanır.

Əxlaq insanın ruhunda yerləşən vərdişlərdir. Bu vərdişlər çox fikirləşməyə ehtiyac olmadan hərəkət və davranışlarımızı

meydana gətirir. Bədən üzvlərinin hərəkətləri ruhumuzla əlaqədardır.

Ruhumuza yaxşı vərdişlər yerləşərsə, bizim də hərəkət və davranışlarımız daha yaxşı olur. Bunlara gözəl əxlaq deyilir. Ən gözəl əxlaq nümunəsi isə Hz.Məhəmmədin (s) özü olmuşdur. O əxlaqını Qurandan almış və bütün yaxşı sifətləri özündə toplamışdır. Peyğəmbərimiz (s) əxlaqi vəzifələri həm öyrətmiş, həm də özü bilavasitə həyata keçirtmişdir. Bütün bunlar Peyğəmbərimizin (s) hədislərində öz əksini tapmışdır. O cümlədən, əfv məsələləri Rəsulullahın (s) hədislərində gözəl əxlaqi davranış kimi yer alır. Tədqiqat işinə mövzunu əhatə edən çoxlu belə hədislər cəlb olunmuş və öz təhlilini tapmışdır. Peyğəmbərimizin fikrincə, pəhləvan meydanda başqalarına qalib gələn deyil, qəzəbli anında nəfsinə hakim olandır. Yaxşılıq edənlərə, yaxşılıq, pislik edənlərə pislik etmək yüksəklik deyildir. Əsil yüksəklik zülm edənlərə, pislik edənlərə qarşı yaxşılıq etməkdir. Lakin tərcümeyi-halından və hədisi-şəriflərindən də məlum olur ki, Peyğəmbərimiz (s) əfv etməklə insanları hidayətə çağırmışdır. Onun əxlaqı Quran idi. Odur ki, O, Quranda caiz sayılan vəziyyətlərdə əfv edirdi. Hər bir şəraitdə əfv edərək xalqın həyatını təhlükəyə atmaq, cəmiyyətin ziyanına hərəkət etmək olmaz. Yaxud mühüm dini müddəaları nəzərə almadan əfv etmək qeyri-mümkündür.[20]

Üçüncü fəslin birinci yarımfəslinin ikinci hissəsi "Əfv diləməyi əmr edən hədislər" adlanır. Əfv o deməkdir ki, insan etdiyi günaha görə ala biləcəyi cəza, cərimə, qisas və günah qarşılığından azad olur. Bu sifət və hərəkət bir növ yaxşılıq və xeyir əməldir ki, əfv edən şəxsə xalqın məhəbbət və hörmətini qazandırar və onun əzizlənib, böyük sayılmasına səbəb olar.

Allahın hüzurunda günah işləyib, yanlış hərəkət etdikdən sonra Ondan əfv, habelə bağışlanmaq gözləyirik. Elə isə biz

---

20 مهدي رضائي شيرازي، شرح كفايت الاصول، شيراز، ره آورد هنر، 1386 شمسي، ص٧٥٠

də, qarşımızda günah işlədərək bizdən bağışlanmaqlarını istəyən insanları əfv etməliyik. Əfv qəlbin zəkatıdır. Zəkat verməklə insanın canı və ruhu qəzəb və kindən təmizlənər və beləliklə, ağıl, habelə ruh ayılar. Peyğəmbərimiz (s) buyurub: "Əfv yolu tutunuz. Çünki, əfv insana izzətdən başqa bir şey verməz. Əfvedici və bağışlayıcı olun ki, Allah sizə izzət versin".[21] Digər bir hədisdə peyğəmbər (s) buyurmuşdur: "Səni həsrət qoyanı bağışla və ona ehsan et, səndən qırılıb ayrılana qovuş, sənə zülm edəni bağışla. Belə edərsənsə, böyük Allah sənin həmin əməllərinin qarşılığında sənə arxa durub yardım edər".[22]

Əfv etməyi böyük comərdlik, həyat rahatlığı qəbul edən Peyğəmbərimiz (s) buyurmuşdur: "Canım Onun qüdrətli əlində olan Allaha and olsun ki, and içmək istəsəm, bu üç şeyə and içərəm:

1) Sədəqə vermək mal və sərvətdən heç bir şey azaltmaz, sədəqə veriniz!
2) Hər kəs bir günahkarı Allah yolunda əfv etsə, Allah da qiyamət günü onun izzət və şövkətini artırar.
3) Heç kimsə özü üçün dilənçilik qapısı açmaz. Demirəm ki, Allah kimsə üçün yoxsulluqdan bir qapı açsın.[23]

Göründüyü kimi, əfv əslində elə bir məcmuədir ki, onda bəxşiş, çalışmaq, mürvət, keçinmək, yola vermək, yumşaq davranmaq və yaxşılıq kimi insani xüsusiyyətlər bir yerə cəmləşmişdir. Əfv təqvanın bir bölməsidir və Allah bəndəsinin fəzilət, yaxud üstünlüyü bundan ibarətdir ki, təqvalı və imanlı olsun, xalqı sevsin, onlarla yumşaq və mehribanlıqla davransın, onların üzərində olan haqqından vaz keçib, güzəştə getsin

---

21 علي صحت، ترجمه وسايل الشيعه مبحث جهاد النفس، تهران، انتشارات ناس، 1364 شمسي، ٦٣٠ص.

22 الشيخ محمد باقر المجلسى – بجار الانوار لدرر اخبار الانمه الاطهار – تهران – اسلاميه. ٧٥٧ص.

23 ملا مهدي نراقي، جامع السعادت، قم، نشر قائم آل محمد، 1358 شمسي، ٦٢٥ص.

və onları bağışlasın.

Üçüncü fəslin ikinci yarımfəsli "Hədislərdə əfv edilməyəcək günahlar haqqında" adlanır. Allah böyükdür. Onun mərhəməti də sonsuzdur. Əvvəlki bölmələrdə Onun əfv edən və bağışlayan olduğundan danışmışdır. Lakin elə şeylər vardır ki, onlar əfv edilməz. Bunlara münasibət hədislərdə də öz əksini tapmışdır. Qurani-Kərim buyurur: "Şübhə yoxdur ki, Allah özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük bir günah etmiş olur".[24] Ayədə açıq-aydın bildirilir ki, bütün günahların bağışlanma imkanı vardır. Lakin şirk əsla və əbədən bağışlanmaz. Heç bir şübhə yoxdur ki, əfv və bağışlamaq vədinin məqsədi şərtsiz deyildir. Ayənin mənasını dərk edərək ona əməl etmək və əhəmiyyətindən bəhrələnmək lazımdır.[25]

1) Tövbə və Allaha doğru qayıtmaq, edilmiş günahlardan ötrü peşman olmaq və bundan sonra günah işləməmək, əvvəlki günahları isə yaxşı əməllər ilə təmizləmək qərarı ilə eyni zamanda olmalıdır.
2) Pis əməlləri yuyacaq və təmizə çıxara biləcək fövqəladə yaxşı əməl.
3) Şəfilərin şəfaəti.
4) Böyük günahlardan uzaq durub, kiçik günahların bağışlanmasına səbəb olmaq.
5) İlahi əfv və bağışlanmaya layiq və haqqı olmaq.

Paraqrafda müşriklərin aqibəti ilə bağlı hədislər də verilmişdir. Şirkə gəlincə, onun təzahür formaları barədə aşağıdakı qənaətə gəlinmişdir:

1) Riya (ikiüzlülük)

Allaha şərik qoşanların bir qismi də o adamlardır ki, onlar oruc tutub namaz qılıb, xeyirli əməllər etsələr də, öz niy-

---

[24] Qurani-Kərim, 4.48.

[25] ناصر مكارم شيرازي، تفسير نمونه، تهران دارالكتب اسلاميه، ٦٢٠ص.

yət və istəklərində xalis, yəni saf deyillər. Həmin əməlləri özlərini göstərmək üçün, yəni, zahiri olaraq yerinə yetirirlər. Bu cür adamlar riyakar kimi Allaha şərik qoşmuş olurlar.

2) Özünü sevdirməsi üçün rəy icad etmə.

3) Bidət (haqqı danmaq)

Hər kəs haqq sındırsa, azğınlıq bayrağı qaldırsa, bir elmi gizlətsə, bir sərvəti zülm və zorla ələ keçirtsə, ya da zalim olduğunu bilə-bilə hər hansı bir zalımın zülm etməsinə yardım etsə, islamdan çıxmışdır.[26] Digər bir hədisdə isə buyurulur: "Bir alimdən bildiyi mövzu ilə bağlı nəyi isə soruşduqda gizlədib cavab verməzsə, qiyamət günü onun ağzına atəşli bir yüyən vurulacaqdır.[27]

4) Küfür.

İmam Sadiq (ə) buyurmuşdur: "Küfür şirkin eyni özüdür. Allahdan başqa bir şeyə könüldən bağlanmaq şirkdir. Bu o deməkdir ki, insan yalnız Allaha könül verib ona bağlanmalıdır. Gedəri olan hər bir şeyə könül vermək isə küfürdür.[28]

Aparılan tədqiqatın yekunu olaraq əfv və barışıq şamil edilməsi ehtimalı aşağıdakı bölümlərdə təzahür edə bilər:

1. Hər kəs bağışlanıb-bağşlanmayacağını bilməyərəkdən istər böyük, istərsə kiçik günah işləsə, həmin günahı bağışlanar.

Hər kəs bağışlanıb, bağışlanmayacağını bilərəkdən böyük və ya kiçik günah işlətsə, o bağışlanmaz.

2. Tövbə edən müşrik və ya qeyri-müşrik olsa belə, bağışlanmaya məsləhət görülsə və ilahi hikmət və məsləhət

---

26 احمد آرام و اخوان حكيمي، الحياه، تهران، دفتر نشر فرهنگ اسلامي،1380 شمسي، ٥٢٥٢ص.

27 ناصر مكارم شيرازي، تفسير نمونه، تهران دارالكتب اسلاميه، ٦٢٠ص.

28 الشيخ محمد باقر المجلسى –بجار الانوار لدرر اخبار الانمه الاطهار –تهران –اسلاميه. ٧٥٧ص.

ona aid olsa, Allahın rəhməti ona qismət olar.[29]

3. Allah itaət əhlinə və tövbə edən günahkarlara əzab verməz.[30]
4. Hər kəs ixlasla, yəni saf və xalis olaraq "la ilahə İlləllah" desə, şirkdən uzaqdır. Şirksiz olaraq dünyanı tərk edən cənnətə daxil olar.[31]
5. Allah əməli və qeyri-əməli günahların bağışlanmasına dair vəd vermiş və qorxudaraq bunu da bildirmişdir ki, şirk, küfr və Allahın birliyini inkar edənlər bağışlanmayacaqlar.[32]
6. Allahın yer üzündəki Rəsulu istədiyi kəsi əfv edər.[33]
7. Tövbə olmadan nə şirk, nə böyük günah, nə də kiçik günah bağışlanmaz.[34]

Dissertasiyanın nəticə hissəsində tədqiat işinə yekun vurulur və çıxarılan nəticələr ümumiləşdirilir.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksni tapmışdır:

1. The significance of archaeology in the Quran. 2nd İnternational Congress of Society of South Asian Archaeology. Shiraz, İran, 2008.

2. فكرة العقوبة فى الشريعة الاسلامية. 2nd international Seminar

---

29 ملا فتح الله كاشاني، تفسير منهج الصادقين في الزام المخالفين، تهران، كتابفروشي محمدحسن علمي، 1336 شمسي، ٦٤٠ص.

30 جمعي ازمترجمان، ترجمه مجمع البيان في تفسير القران، تهران، انتشارات فراهاني، 1360 شمسي، ٥٠٦ص.

31 محمد بن محمدرضا قمي مشهدي، تفسير كنز الدقائق و بحر الغرائب، تهران، سازمان چاپ و انتشارات وزارت ارشاد اسلامي، 1361 شمسي، ٥٦٥ص.

32 سيد محمدحسين حسيني همداني، انوار درخشان، تهران، كتابفروشي لطفي، 1404 قمري، ٥٠٠ص.

33 شيخ عبدالعلي محمدي شاهرودي، ترجمه معاني الاخبار، تهران، دارالكتب اسلاميه، 1377 شمسي، ٦٥٠ص.

34 ملا حويش آل غازي عبدالقادر، بيان المعاني، دمشق، مطبعه الترقي، 1382 قمري، ٥٦٥ص

On Islamic Thought/ At UKM, Bangi Selangor Malaysia, 2009, s.1.

3. Study of the concept of Asceticism in the İslamic mysticizm: Based on the mystics texts. The üorld of İslam: History, society, culture. Москва, Российский университет дружбы народов, 2010, s.217.

4. Əfv və onun İslamdakı yeri. – Azərbaycan xalqının milli özünütəsdiqində ədəbiyyat və mədəniyyətin yeri. Beynəlxalq konfransın materialları. Bakı – 2010, səh.341.

5. Quran və rəvayətlərdə tövbə və əfv tələb etmə məsələsi. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi məcmuəsi. Bakı – 2010, səh.353.

6. İslamda əfv. Filologiya məsələləri. №1. "Elm və təhsil". Bakı – 2010, səh.469.

7. Hədislər əfv edilməyəcək günahlar haqqında. "Mədəniyyət dünyası" c. XXII - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin jurnalı,. Bakı – 2011, səh.134.

8. Prophet`s (s) hadithes about forgiveness. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 1. Bakı – 2012, s.206.

9. Forgiveness in Quran and Hadith. Archives des Sciences. Journal, Vol65, No.6: Jun 2012

Jahdi M.H.

Forgiveness issues in Koran and hadithes

SUMMARY

While mentioning peculiarities of the believers Koran especially emphasizes that they are merciful and forgiving in anger. Our Prophet (s) especially distinguished virtue of being merciful and said it is means of development of brotherly relations between the believers.

In the introduction of the dissertation actuality of the theme is grounded, the aim, tasks and degree of study of the research are determined. Conclusions obtained during the research and scientific novelty is presented with appropriate proves; practical significance, approbation and construction of the dissertation are shown.

The first chapter tilled "Forgiveness and its display in Islamic morality" consists of two paragraphs. Here such subparagraphs as "Koran as the main criterion of Islamic morality" and "Prophet's (s) hadithes as the main source of Islamic morality" have been studied.

The second chapter tilled "Forgiveness issues in Koran" consists of three paragraphs and three subparagraphs. In this chapter the verses of Koran on forgiveness are investigated and analyzed. The verses assessing forgiveness as nice moral behaviour and ordering to forgive are also mentioned.

The third chapter tilled "Forgiveness issues in Prophet Muhammad's (s) hadithes" consists of two paragraphs and three subparagraphs. Here hadithes on forgiveness are investigated and analyzed. A number of regulations of forgiveness apprehended as nice moral behaviour are revealed

as acceptable and unacceptable from hadithes point of view.

In the conclusion of the dissertation the results of the research work which were reflected in the scientific publications of the researcher have been summarized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ имени МУХАММЕДА ФИЗУЛИ**

***На правах рукописи***

**МУХАММЕДАЛИ ГУСЕЙН ОГЛЫ ДЖАХДИ**

# ВОПРОСЫ ПРОЩЕНИЯ В КОРАНЕ И ХАДИСАХ

**7213.01 – Религиоведение**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по философии**

**БАКУ - 2013**